# Nümayəndə heyətləri Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədilə ölkəmizə səfərə gəliblər





Pakistan İslam Respublikası Senatının Sədri Syed Yusuf Raza Gilani Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədilə ölkəmizə səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Pakistan Senatının Sədrini Milli Məclis Sədrinin müavini Musa Qasımlı, parlamentin Pakistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Kamaləddin Qafarov və digər rəsmi şəxslər qarşılayıblar.

❖ ❖ ❖

Rumıniya Parlamenti Senatının Sədri Mirça Abrudean Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədilə Azərbaycana səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Rumıniya Parlamenti Senatının Sədrini Milli Məclis Sədrinin müavini Rafael Hüseynov və digər rəsmi şəxslər qarşılayıblar.

❖ ❖ ❖

Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) Federal Milli Şurasının Sədri Saqr Qobaşın rəhbərlik etdiyi nümayəndə heyəti oktyabrın 28-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Heydər Əliyev Beynəlxalq Hava Limanında Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurasının Sədrini Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, Birləşmiş Ərəb Əmirlikləri ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Paşazadə və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində spiker Saqr Qobaş ölkəmizin rəsmiləri ilə bir sıra görüşlər keçirəcək, ikitərəfli münasibətlərin inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi aparacaq.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 29 oktyabr (№ 231).- S.9.